# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Miqrasiya orqanları işçilərinin fasiləsiz qulluq illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nın təsdiq edilməsi barədə" 2012-ci il 16 noyabr tarixli 260 nömrəli və "Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 14 noyabr tarixli 492 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də və 2010-cu il 26 yanvar tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının miqrasiya orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2148 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1199; 2017, № 4, maddə 620; 2021, № 11, maddə 1290) ilə təsdiq edilmiş "Miqrasiya orqanları işçilərinin fasiləsiz qulluq illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bənddən ", yaxud Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin" sözləri çıxarılsın;

1.2. 4.2-ci bənddən “və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin” sözləri çıxarılsın;

1.3. 4.3-cü bənddən “Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətində,” sözləri çıxarılsın;

1.4. 4.4-cü bənddən “, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 noyabr tarixli 492 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2156; 2020, № 11, maddə 1403) ilə təsdiq edilmiş “Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.5-ci bənddən “və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətində” sözləri çıxarılsın və həmin bənddə “komissiyaları” sözü “komissiyası” sözü ilə əvəz edilsin;

2.2. 2.1-ci bənddən “(Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi)” sözləri çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 18 sentyabr 2023-cü il

№ 334